# Şəhid Orxan Əsgərov torpağa tapşırıldı

**Yanvarın 27-də səhər saat 08:30 radələrində Azərbaycan Respublikasının İrandakı səfirliyində baş verən terror nəticəsində şəhid olan səfirliyin mühafizə xidmətinin rəisi, baş leytenant Orxan Əsgərovun nəşi yanvarın 29-da Bakı şəhərinə gətirilib, ailəsinə təhvil verilmişdir. Ötən gün şəhidimiz çoxsaylı ictimaiyyət nümayəndələrinin, dövlət və hökumət işçilərinin, deputatların, ziyalıların və hərbçilərin iştirakı ilə İkinci Fəxri xiyabanda dəfn olundu.**









Şəhidin dəfni saat 12:00-a planlaşdırılsa da, səhər saatlarından əllərində çiçək dəstələri olan insanlar İkinci Fəxri xiyabana toplaşıb, dövlətimizə qarşı xaincəsinə törədilən basqına görə İranın dini rejiminə öz kəskin etirazlarını bildirirdilər. İnsanlar terrorun qarşısını alarkən həyatını itirən Orxan Əsgərovun ruhuna dualar oxuyurdular.

Gündüz saat 12 radələrində şəhidin nəşi İkinci Fəxri xiyabana gətirildi. Orxan Əsgərova hörmət və ehtiram əlaməti olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyi Fəxri Qaravul Dəstəsinin hərbi qulluqçuları fəxri qaravula durdular. Yüksək çinli dövlət rəsmilərinin, ictimaiyyət nümayəndələrinin, şəhidin ailə üzvləri və yaxınlarının iştirakı ilə xain terrorun qurbanı, şəhid baş leytenant son mənzilinə yola salındı.

O.Əsgərovun xatirəsinə ehtiram əlaməti olaraq yaylım atəşi açıldı və Azərbaycanın Dövlət himni səsləndirildi.

Dəfn mərasimində iştirak edən Milli Məclisin deputatı Hikmət Babaoğlu İran səfirliyində törədilən terror aktına münasibət bildirərək dedi:

- Əlbəttə ki, Azərbaycan özünün ağrılı günlərindən birini yaşayır. Gözləmədiyimiz, qonşu hesab etdiyimiz bir ölkədə diplomatlarımıza qarşı terror törədilir. Biz bu terroru lənətləyirik. İran bu terrora görə həm Azərbaycan xalqına, həm də İranda yaşayan 40 milyon soydaşımıza cavab verməlidir. Necə olur ki, əhalisinin yarıdan çoxu soydaşlarımız olan bir ölkədə Azərbaycan səfirliyinə qarşı terror aktı törədilir? Azərbaycan xalqı qətiyyətlidir, Azərbaycan dövləti güclüdür. Müzəffər Ali Baş Komandanımız tələb edir ki, İran bu məsələyə cavab versin. İndi tarixin çox mürəkkəb mərhələsindən keçirik. Görünür, bu mərhələdə bu ağrıları da yaşamalıyıq. 44 günlük savaşda şəhidlər verərək milli məqsədimizə çatdıq, ərazi bütövlüyümüzü təmin etdik. Digər məsələləri də həll edəcəyik.

XXI əsrdə dövlətimizin böyük gələcəyi uğrunda Azərbaycan şəhidlər verməyə hazırdır. Ona görə də biz bu mərhələni keçərək əlbəttə ki, Azərbaycan xalqının iradəsinə uyğun olaraq ölkəmizin maraqlarının tam təmin edilməsini görəcəyik.

Azərbaycan yeni reallıq yaradıb. Ölkəmiz yeni güc mərkəzinə çevrilir. Yeni yaranacaq dünya nizamında Azərbaycanın yeri, rolu, nüfuzu artır. Çox təəssüf ki, İran rejimi Azərbaycanın yaratdığı yeni reallığı qəbul etmək istəmir. Kommunikasiyaların açılmasına, sülhə qarşıdır. Onun nəticəsi də Azərbaycana qarşı belə aqressiv terror hərəkətlərinə gətirib çıxarır. Əlbəttə ki, getdiyimiz yolda bu cür hərəkətlər bizə mane ola bilməz.

Söhbətimizi Milli Məclisin deputatı Aydın Mirzəzadə ilə davam etdirdik. O dedi:

- Uzun illərdir ki, biz İran rəsmilərindən, yüksək rütbəli iranlı hərbçilərdən, generallardan, "din xadimlərindən" təhdidlər eşidirdik. Dolayısı ilə İran Azərbaycanın dövlət müstəqilliyini qəbul edə bilmirdi. Yanvarın 27-də İranda səfirliyimizdə baş verən terror aktı indiyə kimi İranda dövlət səviyyəsində Azərbaycana qarşı aparılan çirkin təbliğatın məntiqi nəticəsi və davamıdır. Bu terror aktı İran xüsusi xidmət orqanları tərəfindən peşəkarlıqla hazırlanaraq həyata keçirilmişdir. İran bu hərəkətə yol verməklə Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, Azərbaycan dövlətinə silahlı qəsd etmiş oldu. Səfirliklərin əraziləri mənsub olduğu dövlətin suveren ərazisi sayılır. Bu silahlı basqına terrordan başqa ad vermək mümkün deyil. Azərbaycan öz dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumağa qadir dövlətdir. Bizi silahla, şəhid etməklə qorxutmağın mümkün olmadığını görək İran anlamış olaydı. Allah şəhidlərimizə rəhmət etsin. Dövlətin müstəqilliyi, Vətənin bütövlüyü uğrunda şəhid olmuş ləyaqətli oğullarımız bu vətən durduqca qəlblərdə yaşayacaqlar.

Bu arada dəfndə iştirak edən gənclərin səsləndirdikləri "Şəhidlər ölməz, vətən bölünməz" şuarları bütün xiyaban boyu əks-səda verərək ətrafa yayıldı. Şəhid Orxan Əsgərovun məzarı gül dəstələrinə, müxtəlif təşkilatların, idarə və müəssisələrin, nazirliklərin, dövlət orqanlarının gətirdikləri əklillərə bürünmüş olur. Məzarın önündən keçən çoxsaylı insanlar şəhidin ruhuna dualar oxuyurdular.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*





Azərbaycan. - 2023.- 31 yanvar.- S. 11.